# TƏRBİYƏ VƏ MƏKTƏBDƏNKƏNAR MÜƏSSİSƏLƏRLƏ İŞ SAHƏSİ ÜZRƏ 2011-Cİ İLDƏ GÖRÜLMÜŞ İŞLƏRƏ DAİR HESABAT

Azərbaycan Respublikası Təhsil Nazirliyinin fəaliyyətində uşaq və gənclərin tərbiyəsi xüsusi yer tutur. Qloballaşan dünya prosesləri bizdən həyati bacarıqlara yiyələnən insanın tərbiyə olunmasını tələb edir. Təhsil alan uşaq və gənclərin dövlətçilik ruhunda tərbiyəsi prioritet sahələrdəndir. Bu baxımdan, təhsil müəssisələrində tərbiyə işləri aşağıdakı istiqamətlər üzrə aparılır.

Azərbaycan dövlətinin qurucusu olan ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətinin təhsil müəssisələrində tədrisi, böyüməkdə olan nəslin onun nümunəsində tərbiyə olunması istiqamətində “Heydər Əliyev irsinin təhsil sistemində təbliğ edilməsi yolları”, “Heydər Əliyevin rəhbərliyi dövründə Azərbaycanın iqtisadi inkişafı”, “Heydər Əliyev və Azərbaycan” mövzularında elmi-praktik konfranslar, dərslər keçirilmiş, yazılar, müsabiqələr təşkil olunmuşdur.

Hər bir təhsil müəssisəsində ümummilli liderin fəaliyyətini əks etdirən foto guşələr və onun fəaliyyəti ilə bağlı dərslər aparılan otaqlar yaradılmışdır. Ənənəvi olaraq bütün tip təhsil müəssisələrində Azərbaycan Respublikasının atributları təbliğ olunur, məktəblilərdə onlara məhəbbət hissi aşılanır. Dövlət bayrağının, gerbinin, himninin yaranması və qorunub saxlanmasında, tətbiqində ulu öndər Heydər Əliyevin fəaliyyəti məktəblilərə öyrədilir.

Dövlətçilik tərbiyəsinin mahiyyətini daha da zənginləşdirmək baxımından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarının sərəncam və çıxışlarından irəli gələn vəzifələr təhsil müəssisələrində pedaqoji ictimaiyyətə çatdırılır.

Təlim prosesində və məktəbdənkənar tədbirlərdə diqqət yetirilən əsas məsələlərdən biri milli-mənəvi tərbiyədir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev milli-mənəvi dəyərlərimizlə, adət-ənənələrimizlə, musiqimizlə, ədəbiyyatımızla, tariximizlə bağlı çıxışlarına istinad olunaraq, məktəblilərlə bu istiqamətdə aparılan işin konsepsiyası işlənmişdir. “Gənclərin milli-mənəvi dəyərlər əsasında tərbiyəsi”nin məzmunu, forması, metodları və yolları yeniləşdirilmişdir.

Vətənpərvərlik tərbiyəsi öz vətəninə sevgi, məhəbbət hissinin, məsuliyyət hissinin, hər an öz vətəninin, öz xalqının müdafiəsinə qalxmağa hazırlığın formalaşmasıdır.

Azərbaycan Respublikasının ərazisinin 20 faizinin Ermənistan tərəfindən işğal olunduğu bir vaxtda gənclərin vətənpərvərlik tərbiyəsi daha böyük aktuallıq tələb edir. Qloballaşan dünyamızda milli-mənəvi dəyərlərin qorunmasının əhəmiyyəti məktəblilərə aşılanır.

İlkin hərbi bilik, bacarıq və vərdişlərin gənclərin inkişafına böyük təsiri olur. Bu məqsədlə məktəblərdə ənənəvi olaraq “Cəsurlar”, “Şahin”, “Sərhəd” hərbi-idman və turizm respublika oyunları keçirilir. Təhsil Nazirliyinin Gənclər və İdman Nazirliyi, Müdafiə Nazirliyi və Dövlət Sərhəd Xidməti ilə birgə həyata keçirdiyi bu tədbirlərə məktəblərdə böyük maraq yaradılmışdır.

Uşaqların tərbiyəsində ailənin əsas rol oynadığı nəzərə alınaraq BMT, UNİSEF, İnsan Hüquqları üzrə Müvəkkilliklə birgə ailə tərbiyəsi sahəsində fəaliyyət planı hazırlanmış və müvəffəqiyyətlə yerinə yetirilir.

Tərbiyə sahəsində millilik gücləndirilmiş, yeni variantlarda tərbiyə proqramlarının layihələri işlənmişdir. Layihədə tərbiyə prosesinin bütün sahələri: fiziki, əqli, mənəvi, estetik, əmək, hərbi-vətənpərvərlik və s. əhatə olunmuşdur.

Tərbiyə işləri üzrə direktor müavinlərinin, sinif rəhbərlərinin, uşaq birliyi rəhbərlərinin iştirakı ilə bölgələrdə seminarlar keçirilərək, Uşaq Hüquqları Konvensiyasının və “Uşaq hüquqları haqqında” Azərbaycan Respublikası Qanununun öyrədilməsi yolları müzakirə olunmuşdur. Müzakirə olunan mövzular “Sinif rəhbərinin illik tərbiyəvi iş planı”na, məktəbin pedaqoji şurasının iş planına daxil edilmiş və sistemli hüquqi biliklər verilmişdir. Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili ilə birlikdə 2010-cu ildə Uşaq hüquqlarının tədrisinə aid birgə tədbirlər planı hazırlanıb həyata keçirilir.

Məktəblərimizdə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə nəzərdə tutulmuş tarixi günlər, bayramlar, yubileylər yüksək səviyyədə həyata keçirilir.

Gənclərin narkomaniyadan, QİÇS-dən və digər zərərli vərdişlərdən qorunması istiqamətində praktik işlər aparmaqla yanaşı, həm də təhsil müəssisələrinə metodik tövsiyə və kitabçalar, əyani təşviqat vasitələri: plakatlar, bukletlər paylanmışdır. Mətbuatda pedaqoji və tibbi maarifləndirməyə xidmət göstərən məqalələr çap olunmuşdur. Müəllimlərin, valideynlərin bu sahələrdə maarifləndirilməsi əsas məsələlərdən biri olmuşdur.

Məktəblilərin asudə vaxtının düzgün qurulmasında məktəbdənkənar təhsil müəssisələrinin böyük rolu vardır. Hazırda Respublikamızın 380 məktəbdənkənar təhsil müəssisəsində 400 minə yaxın şagird məşğul olur.

Fiziki tərbiyə və idman dövlət üçün mühüm əhəmiyyət kəsb edən məsələlərdən biridir. Məhz bunun nəticəsidir ki, Azərbaycan xalqının ümummilli lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin Respublikaya rəhərlik etdiyi dövrlərdə ölkədə bədən tərbiyəsi və idmanın inkişafına xüsusi dövlət qayğısı olmuşdur. Hazırda Heydər Əliyev siyasi məktəbinin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarının fəaliyyətində bu sistem prioritet sahələrdən birini təşkil etməkdədir.

Sumqayıt şəhərində 1 nömrəli Uşaq-Gənclər İdman Məktəbinin idman kompleksi yenidən inşa edilib, müasir tələblərə cavab verən idman zalları, üzgüçülük hovuzu və təbii ot örtüklü futbol meydançası yaradılıb.

Yevlax Rayon Uşaq-Gənclər İdman Məktəbinin idman kompleksində əsaslı təmir işləri davam etdirilir.

Ölkədə idmana göstərilən diqqət və qayğı nəticəsində son illər Azərbaycan idmançıları beynəlxalq yarışlarda böyük uğurlar əldə edirlər. Məhz buna görə də ölkəmizdə çoxlu sayda Avropa, dünya birincilikləri, olimpiya təsnifat turnirləri keçirilməkdədir. Azərbaycan Respublikası Təhsil Nazirliyi sistemində 159 uşaq-gənclər idman və şahmat məktəbləri fəaliyyət göstərir. Onlardan: 83-ü uşaq-gənclər idman məktəbi, 9-u ixtisaslaşdırılmış olimpiya ehtiyatları uşaq-gənclər idman məktəbi, 63-ü uşaq- gənclər şahmat məktəbi, 3-ü ixisaslaşdırılmış olimpiya ehtiyatları uşaq-gənclər şahmat məktəbi, 1-i uşaq-gənclər fiziki hazırlıq klubudur.

Ümumi təhsil, orta ixtisas və ali təhsil müəssisələrində yeniyetmə və gənclərin idmanla məşğul olması üçün əlverişli şərait yaradılmış, futbolun inkişaf etdirilməsi istiqamətində həyata keçirilən tədbirlər nəticəsində şagird və tələbələr arasında idmanın bu növünə maraq xeyli artmışdır.

“2005-2015-ci illərdə Azərbaycanda futbolun inkişafına dair Dövlət Proqramı”nın icrası ilə bağlı cari ildə bir sıra tədbirlər həyata keçirilmişdir.

Uşaq, yeniyetmə və gənclər arasında futbol idman növünü təbliğ etmək, onların ustalıqlarını artırmaq, perspektivli futbolçuları üzə çıxartmaq məqsədilə Təhsil Nazirliyi tərəfindən il ərzində uşaq-gənclər idman məktəbləri, ümumtəhsil, texniki peşə, orta ixtisas və ali təhsil müəssisələrinin şagird və tələbələri arasında mütəmadi olaraq müxtəlif yaş qrupları üzrə məktəbdaxili, rayon, şəhər və respublika səviyyəli yarış, birincilik və çempionatlar keçirilmiş, müxtəlif yaş qrupları üzrə komandaların beynəlxalq turnirlərdə iştirakları təmin edilmişdir.

Təhsil Nazirliyi tərəfindən təsdiq edilmiş təqvim planına uyğun olaraq uşaq, yeniyetmə və gənclər arasında il ərzində futbol idman növü üzrə müxtəlif səviyyəli yarış, birincilik və çempionatlar keçirilmişdir.

Futbolun inkişafına dair Dövlət Proqramının icrası ilə əlaqədar yeni idman meydançalarının salınması, futbolun yeniyetmələr və gənclər arasında kütləviliyinə nail olunması, onların ustalıqlarının artırılması istiqamətində işlər davam etdirilmişdir.

2011-ci ilin may ayında “Vətən” İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər Futbol Məktəbi üçün əlavə olaraq ikinci yeni stadion, hər cür şəraiti olan inzibati bina və digər yardımçı otaqlar istifadəyə verilmişdir.

Təhsil Nazirliyi və Azərbaycan Futbol Federasiyaları Assosasiyasının birgə təşkilatçılığı ilə Bakı şəhəri ümumtəhsil məktəblərinin qabaqcıl fiziki tərbiyə müəllimləri üçün seminar, Bakı şəhər məktəblilərinin veteran futbolçularla görüşləri keçirilmiş, Bakı şəhəri 51, 136, 171, 200,

201, 237, 239 və 240 nömrəli orta məktəblərin V, VI, və VII siniflərində futbol dərsləri tədris olunmuşdur. Futbol dərsləri tədris olunan siniflər və məktəblər arasında turnirlər keçirilmişdir. Əksər futbolçuları 201 və 239 nömrəli məktəblərdə təhsil alan 15 yaşlı qızlardan ibarət milli yığma komanda yaradılmışdır.

Futbolun inkişafına dair Dövlət Proqramının icrası ilə əlaqədar yeni idman meydançalarının salınması, futbolun yeniyetmələr və gənclər arasında kütləviliyinə nail olunması istiqamətində işlər davam etdirilir.

Azərbaycan Respublikası Prezidentinin "2009-2014-cü illərdə Azərbaycanda şahmatın inkişaf etdirilməsi Dövlət Proqramı"nın təsdiq edilməsi barədə 05 may 2009-cu il tarixli, 260 nömrəli Sərəncamının icrası ilə bağlı Təhsil Nazirliyinin tədbirlər planına uyğun olaraq bir sıra işlər həyata keçirilmişdir.

2011-ci ildə şahmat məktəblərinin maddi-texniki bazalarının möhkəmləndirilməsi istiqamətində bir çox işlər aparılmışdır. Belə ki, Ağcabədi, Quba, Xaçmaz və Ucarda şahmat məktəbləri üçün yeni binalar tikilib istifadəyə verilmişdir. Sevindirici haldır ki, həmin məktəblərin binalarının açılışını cənab İlham Əliyev etmişdir.

Hazırda Goranboy və Saatlı rayon şahmat məktəblərinin binaları yenidən tikilmiş və yeni dərs ilində istifadəyə verilməsi nəzərdə tutulur.

Dövlət Proqramı çərçivəsində nazirlik tərəfindən Masallı şahmat məktəbi əsaslı təmir olunmuş, Ağstafa şahmat məktəbinin isə əsaslı təmiri başa çatmaq üzrədir.

Bakı şəhərində Respublika İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər Şahmat Məktəbi və 1 N-li İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər Şahmat-Dama Məktəbləri təmir edilmiş 2 N-li Uşaq-Gənclər Şahmat Məktəbinə isə istilik sistemi çəkilmişdir.

Cari ildə də nazirlik tərəfindən mərkəzləşdirilmiş qaydada bütün şahmat məktəbləri üçün şahmat inventarı, müxtəlif mebel dəstləri, kompüter, kompüter avadanlıqları, texniki tədris vasitələri, digər zəruri avadanlıqlar və əyani vəsaitlər alınaraq paylanmışdır. Hazırda şahmat məktəbləri üçün elektron tədris vasitələri hazırlanıb və yaxın vaxtlarda həmin məktəblərin istifadəsinə veriləcəkdir.

2011-ci ildə təcrübə mübadiləsi aparmaq, məktəbli şahmatçılara əməli və metodiki kömək göstərmək, eləcə də hakimlik etmək üçün Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərən şahmat məktəblərinin əməkdaşlarının, eyni zamanda beynəlxalq qrossmeysterlərin müxtəlif ölkələrdə keçirilən Avropa, dünya birinciliklərində, çempionatlarında və beynəlxalq turnirlərdə iştirakları təmin edilmişdir.

Müvafiq bazası olan şahmat məktəblərinin bina və yarış zallarında təlim-məşq prosesindən kənar vaxtlarda əhalinin bütün yaş təbəqələri nümayəndələrinə yarışların və şahmatla bağlı digər tədbirlərin keçirilməsi üçün müvafiq şərait yaradılıb. Belə ki, şahmat məktəblərində təlim-məşq prosesindən kənar vaxtlarda əhalinin bütün yaş təbəqələri nümayəndələri ilə yarışların və şahmatla bağlı digər tədbirlərin keçirilməsi üçün şahmat məktəblərində təşkilat komitələri yaradılmış, bununla bağlı məlumat-maarifçilik və təbliğat işinin təşkili üzrə müxtəlif elanlar hazırlanaraq şagird və valideynlər arasında yayılmışdır. Şəraiti olan şahmat məktəblərində həftənin bir neçə günü, müəyyən olunmuş saatlarda "Açıq qapı" günləri təşkil olunur, əhalinin müxtəlif yaş təbəqələrinin iştirakı ilə "Blits turnir", "Master klass" və s. yarış, turnirlər keçirilir, şahmat ustaları, qabaqcıl məşqçi-müəllimlər və hakimlərlə görüşlər təşkil olunur. Eyni zamanda məktəblilərin tətil günlərində əhalinin bütün yaş təbəqələrindən olan nümayəndələri ilə şahmat məktəblərinin yetirmələri arasında turnir və yarışlar keçirilir.

2011-ci ildə şahmat məktəbləri komandalarının respublika komanda çempionatının zona yarışları, Bakı şəhərində ümummili lider Heydər Əliyevin anadan olmasının 88-ci ildönümünə, Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının iyirminci ildönümü həsr olunmuş respublika turnirləri, məktəblilərin respublika çempionatı, Respublika Gününə, Novruz bayramına həsr olunmuş turnirlər, yeniyetmələrin respublika şahmat olimpiadası və s. yarışlar keçirilmişdir.

Yaradılan şəraitin nəticəsidir ki, 2011-cu ildə də şahmat məktəblərinin yetirmələri yarışlarda müvəffəqiyyətlə çıxış edərək, respublika birincilik və çempionatlarında 14-ü qızıl, 11-i gümüş və 13-ü bürünc olmaqla 38 medal qazanmışlar.

Bununla yanaşı, 2011-ci ildə rəsmi Avropa, Dünya birinciliklərində və çempionatlarında yeniyetmə şahmatçılarımız 10 medal, o cümlədən, 5 qızıl, 3 gümüş və 2 bürünc medal qazanmışlar.

**Təhsil Nazirliyi sistemində fəaliyyət göstərən idman və şahmat məktəblərinin yetirmələri 2010-ci ildə respublika və beynəlxalq yarışlarda bütövlükdə 1886 medal qazanmışlar. Onlardan 178-i (54 qızıl, 50 gümüş, 74 bürünc) beynəlxalq turnirlərdə, Avropa, Dünya birinciliklərində və çempionatlarında qazanılmışdır.**

**2011-ci ildə idman növləri üzrə 1933 nəfər yüksək dərəcəli idmançı hazırlanıb. Onlardan 1707 nəfəri I- dərəcəli, 214 nəfər idman ustalığına namizəd, 6 nəfər idman ustası, 3 nəfər FİDE ustası, 3 nəfər isə beynəlxalq dərəcəli idman ustası, 1 nəfər isə beynəlxalq qrossmeysterdir.**

Şahmat məktəblərinin yeni dərs vəsaitləri ilə təmin olunması istiqamətində də müvafiq işlər aparılır. 2011-ci ildə ilk dəfə olaraq şahmat məktəbləri üçün "Şahmat dünyası" multimedia sistemi çap olunaraq bütün şahmat məktəblərinə paylanmışdır. Hazırda "Şahmat dünyası-2" elektron tədris vəsaiti hazırlanmışdır.

Həyata keçirilən tədbirlərlə yanaşı, ölkənin ümumtəhsil məktəblərində şahmatın tədris olunması, onun dərindən öyrənilməsi də planlaşdırılır. Bu məqsədlə Beynəlxalq Şahmat Federasiyası, Azərbaycan Şahmat Federasiyası və Təhsil Nazirliyi Azərbaycanda şahmatın inkişaf etdirilməsi ilə bağlı birgə memorandum imzalamışdır.

Dövlət Proqramında, eləcə də Memorandumda nəzərdə tutulan məsələlərin icrasını təmin etmək məqsədilə "Şahmat" adlı fənnin ümumtəhsil məktəblərinin tədris planına salınması, müvafiq tədris planı və proqramların, şahmat üzrə dərslik, dərs vəsaiti və metodiki vəsaitlərin hazırlanması, 2012-ci ildən başlayaraq rayon və şəhərlərdə seçilmiş bir ümumtəhsil məktəbinin 2-ci siniflərində şahmat dərslərinin tədris olunması nəzərdə tutulur.

Təhsil Nazirliyi tərəfindən respublikanın bütün şəhər və rayonlarını əhatə edən müxtəlif yaş qrupları və idman növləri üzrə 44 yarış, çempionat, turnir və kütləvi tədbirlər və yarışlara hazırlıqla əlaqədar 99 təlim-məşq toplanışları keçirilmişdir.

Bunun nəticəsi olaraq idmançılar respublika birincilik və çempionatlarında, eləcə də milli yığma komandaların tərkiblərində Avropa, dünya birinciliyində və beynəlxalq turnirlərdə müvəffəqiyyətlə çıxış edirlər.

İdman növləri üzrə bir sıra yarışlar keçirilmiş, şəhər, respublika və beynəlxalq səviyyəli çempionat, birincilik və turnirlərdə idmançılarımız müvəffəqiyyətlə çıxış etmişlər. Respublika və beynəlxalq yarışlarda yüksək nəticələr göstərən idmançılar arasında 1 və 2 saylı Respublika İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman məktəblərinin, Respublika İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər Gimnastika Məktəbinin və Bakı şəhəri 1 nömrəli İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər Şahmat-Dama Məktəbinin, Sumqayıt, Gəncə, Lənkəran və Naxçıvan şəhərlərinin yetirmələri üstünlük təşkil edir.

Hazırda Azərbaycan Respublikası təhsil nazirinin müvafiq əmrinə əsasən istedadlı gənc idmançıları, məşqçi müəllimləri aşkar etmək məqsədilə uşaq gənclər idman və şahmat məktəblərinin respublika müsabiqəsi keçirilir.

Nazirliyin kütləvi idman tədbirlərinin təqvim planına müvafiq olaraq təhsil müəssisələrində idmanın müxtəlif növləri üzrə tələbə və şagirdlər arasında spartakiadalar, birinciliklər, dövlət əhəmiyyətli bayramlara həsr olunmuş tədbirlər və xatirə turnirləri keçirilir. Bu tədbirlərdə ali, orta ixtisas, peşə məktəbləri, peşə liseyləri və ümumtəhsil məktəblərində təhsil alan tələbə və şagirdlər iştirak etmişdir. Bu yarışların tələbə və şagirdlərin idmana marağının artırılmasında böyük rolu vardır.

2011-ci ildə ümumtəhsil, texniki-peşə, orta ixtisas və ali təhsil müəssisələrinin şagird və tələbələri arasında voleybol, həndbol, basketbol, atletika və milli güləş idman növləri üzrə 13 respublika yarışı keçirilmişdir. Həmin yarışlarda 5050 nəfər şagird və tələbə iştirak etmişdir.

Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinin birgə qərarına əsasən 2011-ci ilin fevral-oktyabr aylarında Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının iyirminci ildönümünə həsr olunmuş "Ümümtəhsil və ilk peşə-ixtisas təhsili müəssisələri şagirdlərinin VI Respublika Spartakiadası" keçirilmişdir.

Spartakiadanın keçirilməsində məqsəd uşaqlar arasında bədən tərbiyəsi və idmanın kütləviliyinə nail olmaq, uşaqların fiziki cəhətdən sağlam böyümələrinə və idman növləri ilə daimi məşğul olmalarına zəmin yaratmaq, məktəblilərin vətənpərvərlik ruhunda tərbiyəsində bədən tərbiyəsi və idmanın rolunu, onların idman ustalıqlarını artırmaqdır.

Spartakiadada ümumtəhsil məktəblərinin və ilk peşə-ixtisas məktəblərinin şagirdləri 8 idman növü üzrə (futbol, həndbol, basketbol, voleybol, stolüstü tennis, atletika, Yunan-Roma güləşi və boks) 4 mərhələdə mübarizə aparmışlar.

Respublikamızda keçirilən ən kütləvi idman tədbirlərindən olan spartakiadada 75 şəhər və rayondan 85 minə yaxın şagird iştirak etmişdir.

Spartakiadanın final mərhələsində idman növləri üzrə şəxsi və komanda yarışlarının qalibləri şəhərlər, rayonlar və ilk peşə-ixtisas təhsili məktəbləri üzrə mükafatlandırılmışlar.

Qeyd olunan nailiyyətlər, görülən işlərlə yanaşı, uşaq və gənclər arasında idmanı daha da inkişaf etdirmək üçün müəyyən problemləri aradan qaldırmağı vacib hesab edirik. Bir çox rayon idman məktəblərinin özünün müstəqil binaları yoxdur. Stadionlar, idman meydançaları azlıq təşkil edir. İnventar və avadanlıqla təchizat yaxşılaşdırılmalıdır.

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında 2011-ci ilin "Turizm ili" elan edilməsi ilə bağlı Tədbirlər Planının təsdiq olunması haqqında" 20 iyul 2011-ci il tarixli, 1644 nömrəli Sərəncamının icrası ilə bağlı Təhsil Nazirliyinin Tədbirlər Planına müvafiq olaraq xüsusi proqram əsasında Bakı şəhər məktəblilərinin turizm nümayişi obyektlərinə ekskursiyaları təşkil edilmişdir.

"Turizm ili" çərçivəsində ümumtəhsil məktəblərində diyarşünaslıq guşələri yaradılmış, Azərbaycanın turizm imkanları barədə şagirdlərlə söhbətlər aparılmış, stendlər, albomlar hazırlanmış, rayon və şəhərlərdə yerləşən Tarix-Diyarşünaslıq, Heydər Əliyev muzeylərinə, tarixi yerlərə və abidələrə şagirdlərin ekskursiyaları təşkil olunmuşdur.

İl ərzində məktəblilər və dərnək üzvləri arasında respublika turizm yarışı, əl işlərinə baxış-müsabiqə və diyarşünaslıq olimpiadası keçirilmişdir.

Azərbayca Respublikası Prezidentinin "Mirzə İbrahimovun 100 illik yubileyinin keçirilməsi haqqında" 08 avqust 2011-cu il tarixli, 1442 nömrəli, "Mirzə Ələkbər Sabirin 150 illik yubileyinin keçirilməsi haqqında" 01 iyun 2010-cu il tarixli, 941 nömrəli və "Mirzə Fətəli Axundzadənin 200 illik yubileynin keçirilməsi haqqında" 13 aprel 2010-cu il tarixli, 851 nömrəli sərəncamlarının icrası ilə bağlı Təhsil Nazirliyi tərəfindən hazırlanmış Tədbirlər Planına müvafiq olaraq təhsil müəssisələrində tədbirlər həyata keçirilmişdir. Hal-hazırda bu istiqamətdə işlər davam etdirilir.

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının iyirminci ildönümü haqqında" 21 yanvar 2011-ci il tarikli, 1293 nömrəli Sərəncamının icrası ilə əlaqədar təhsil müəssisələrində silsilə tədbirlər həyata keçirilmişdir: ali məktəb tələbələri arasında "Azərbaycan çiçəklənən diyar", ümumtəhsil müəssisələrinin şagirdləri arasında "Çiçəklənən Azərbaycan" mövzularında rəsm müsabiqələri keçirilmişdir. Qaliblər nazirliyin diplom və hədiyyələrilə mükafatlandırılmışlar.

Azərbaycan Respublikası Təhsil Nazirliyinin 25 yanvar 2011-ci il tarixli 121 nömrəli əmrinə əsasən ümummilli lider Heydər Əliyevin anadan olmasının 88-ci ildönümü münasibətilə ümumtəsil məktəblərinin şagirdləri arasında "Heydər Əliyev və müstəqil Azərbaycan" mövzusunda respublika rəsm müsabiqəsi keçirilmiş, I, II,III yerlərə layiq görülmüş məktəblilərə diplomlar və hədiyyələr verilmişdir.

Azərbaycan Respublikası Təhsil Nazirliyinin və Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin birgə qərarına əsasən ümummilli lider Heydər Əliyevin anadan olmasının 88-ci ildönümünə həsr olunmuş ali məktəb tələbələri arasında bədii

yaradıcılıq festivalı keçirilmiş I, II, III, yerlərə layiq görülmüş tələbələr təhsil nazirliyi tərəfindən mükafatlandırılmışdır.

Təhsil Nazirliyinin 24 noyabr 2010-cu il tarixli 1528 nömrəli əmrinə əsasən uşaq və yeniyetmələrin respublika elmi-texniki yaradıcılıq müsabiqəsi keçirilmişdir. Müsabiqədə 8 yaşdan 18 yaşadək uşaq və yeniyetmələr iştirak etmişlər. Müsabiqə texniki yaradıcılığın 5 növü üzrə 15 nominasiyada keçirilmişdir. Müsabiqənin zona mərhələsində respublikanın 68 rayonundan 300 nəfərə yaxın, Respublika mərhələsində isə respublikanın 45 rayon və şəhərindən 195 nəfər məktəbli iştirak etmişdir. I, II, III yerlərə layiq görülmüş məktəblilər nazirliyin diplomu və hədiyyələrlə mükafatlandırılmışlar.

2012-ci ilin iyun ayında Londonda keçiriləcək XXX Yay Olimpiya Oyunlarına maraq oyatmaq, olimpiya idman növlərini məktəblilər arasında təbliğ etmək məqsədilə "Ən çox sevdiyim idman növü" mövzusunda Respublika rəsm müsabiqəsinin keçirilməsi ilə bağlı Təhsil Nazirliyinin əmr və tədbirlər planı hazırlanmışdır.

Təhsil Nazirliyinin 26 yanvar 2011-ci il tarixli, 141 nömrəli əmri ilə 05 may 2011-ci il tarixində Ümummilli lider Heydər Əliyevin anadan olmasının 88-ci ildönümünə həsr olunmuş "Bakı şəhərində yerləşən orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında ifa müsabiqəsi" keçirilmişdir. Qaliblər nazirliyin diplom və hədiyyələri ilə mükafatlandırılmışdır.

Nazirliyinin 22 fevral 2011-ci il tarixli, 293 nömrəli əmri ilə 05 may 2011-ci il tarixində Ümummilli lider Heydər Əliyevin anadan olmasının 88-ci ildönümünə həsr olunmuş İlk peşə-ixtisas təhsilli müəssisələrinin şagirdləri arasında ifa ürə respublika müsabiqəsi keçirilmişdir. Qaliblər nazirliyin diplom və hədiyyələri ilə mükafatlandırılmışdır.

Nazirliyin 24 fevral 2011-ci il tarixli 316 nömrəli əmri ilə respublika muğam ifaçılarının "Muğam Fəzası" Beynəlxalq Muğam Festivalında iştirakını təmin etmək, istedadlı muğam ifaçılarını üzə çıxarmaq məqsədilə Heydər Əliyev Fondu, Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Mədəniyyətinin Dostları Fondu, Azərbaycan Milli Konservatoriyası və Lider TV-nin dəstəyi ilə II Respublika Muğam müsabiqəsi keçirilmişdir. Müsabiqə qalibləri diplom və hədiyyələrlə mükafatlandırılmışldır.

Fövqəladə Hallar Nazirliyi ilə birlikdə təşəbbüsü ilə 20 may 2011-ci il tarixdə Azərbaycan Memarlıq və İnşaat Universitetində ali təhsil müəssisələrinin tələbələri və gənc müəllimlərinin "Həyat fəaliyyətinin təhlükəsizliyinin elmi-praktik aspektləri: nailiyyətıər, problemlər, perspektivlər" adlı birgə elmi-praktik konfransı keçirilmişdir.

Təhsil Nazirliyi ilə Fövqəladə Hallar Nazirliyinin "Fövqəladə hallar uşaqların gözü ilə" mövzusunda 01 iyun 2011-ci il tarixində respublika uşaq yaradıcılıq müsabiqəsi keçirilmişdir. Qaliblər Fövqəladə Hallar Nazirliyinin hədiyyələri ilə mükafatlandırılmışdır.

23 iyun-14 iyul 2011-ci il tarixlərində Bakı şəhərinin bir neçə məktəbindən təhsil və ictimai işlərdə fəal olan 12 şagird və 1 müəllim Ümumrusiya "Orlyonok" uşaq mərkəzində "Şəxsiyyətlər dialoqundan - Mədəniyyətlər dialoquna" adlı II Beynəlxalq forumda iştirak etmiş, ölkəmizi layiqincə təmsil etmişlər.

Azərbaycan Respublikası Təhsil Nazirliyinin 24 oktyabr 2011-ci il tarixli, 1697 nömrəli əmri ilə uşaq yaradıcılıq mərkəzlərinin dərnək üzvlərinin əl işlərinin Respublika müsabiqəsi keçirilmiş, I, II,III yerlərə layiq görülmüş məktəblilərə diplomlar və hədiyyələr verilmişdir.

Təhsil Nazirliyinin 24 oktyabr 2011-ci il tarixli, 1695 nömrəli əmri ilə məktəblilər arasında Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının 20-ci ildönümünə həsr olunmuş ifa müsabiqəsi keçirilmişdir. Müsabiqənin final mərhələsi 20-23 dekabr 2011-ci tarixdə keçirilmişdir. Qaliblərin mükafatlandırılması və yekun konsertin keçirilməsi 2012-ci ilə nəzərdə tutulmuşdur.

T.İsmayılov adına Uşaq-Gənclər Yaradıcılıq Sarayının hesabat ili ərzində bir çox uğurları olmuşdur. Sarayın kollektivi müxtəlif beynəlxalq və dövlət səviyyəli tədbirlərdə, müsabiqələrdə iştirak etmişdir.

Sarayın xüsusi istedada malik uşaqları 2011-ci ilin may ayında Azərbaycanın İspaniyadakı səfirliyinin dəvəti ilə Barselona və Madriddə olmuş, respublikamızı layiqincə təmsil etmişlər.

Respublika səviyyəli tədbirlər Sarayın “Uşaq Dünyası” Rəsm Qalereyasında keçirilmişdir.

Nizami rayon Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin kollektivinin respublika və beynəlxalq səviyyəli müsabiqə və festivallarda böyük uğurları olmuşdur:

- Mərkəzin “Azəri inciləri” rəqs qrupu və “Çiçəyim” uşaq teatrının üzvləri Türkiyə respublikasının Fəthiyə şəhərində keçirilən “23 nisan – Beynəlxalq Uşaq Festivalı”nda böyük uğurla çıxış etmiş, gənc rəssamlar arasında “Yaponiya uşaqlarını necə xoşbəxt etmək olar?” mövzusunda keçirilən rəsm müsabiqəsində dərnək üzvü Nicat Məmmədov I yer tutmuşdur.
- Sankt-Peterburq şəhərində keçirilən “Qolos rebenka” adlı beynəlxalq rəsm və foto müsabiqəsində dərnək üzvü Şamil Quluzadə I yerə layiq görülmüşdür.
- İordaniya Haşimilər Krallığının keçirdiyi Beynəlxalq İncəsənət Müsabiqəsində dərnək üzvləri Ağazadə Ləman bürünc medal, İsmixanova Şəbnəm və Arefyeva Daryaya İordaniyanın Azərbaycandakı Səfiri tərəfindən diplom, medal və hədiyyələr təqdim edilmişdir.
- 02-05 dekabr 2011-ci il tarixlərdə mərkəzin “Azəri inciləri” rəqs qrupunun üzvləri İngiltərənin Sevenoaks şəhərində keçirilən “Azərbaycan günləri” adlı tədbirə dəvət almış və iştirak etmişlər.
- 10 dekabr 2011-ci il tarixində “10 dekabr – Beynəlxalq İnsan Hüquqları Günü” və Azərbaycanın dövlət müstəqilliyinin bərpasının iyirmi illiyi münasibəti ilə OMBUDSMAN aparatının keçirdiyi “Mən və hüquqlarım” mövzusunda respublika rəsm müsabiqəsində dərnək üzvləri Günel Məmmədova I, Nərmin Hümbətzadə isə II yer tutmuşlar.
- 15 dekabr 2011-ci il tarixində mərkəzin 6 yaşlı dərnək üzvü Mələk Şəfiyevanın “Mənim rəngli dünyam” adlı fərdi sərgisi keçirilmişdir.
- ABŞ-nın Vaşinqton şəhərində Beynəlxalq İncəsənət Fondunun təşkilatçılığı ilə 17-20 iyun 2011-ci il tarixlərində keçirilən IV Beynəlxalq Uşaq İncəsənət Festivalında Nizami rayon Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin dərnək üzvü Nərmin İsmayılzadə və Quba rayon Uşaq Yaradıcılıq Mərkəzinin dərnək üzvü Jalə Rizvanova qalib olmuş və mükafatlandırma mərasimində iştirak etmişlər.

2011-ci ilin yanvar-mart aylarında Sloveniyanın Selye şəhərində “Dünya incəsənəti” jurnalı və Gənc İncəsənət Qalereaysının birgə təşkilatçılğı ilə 35 ölkənin iştirak etdiyi “Xalqımın etnoloji geyimləri və folklor rəqsləri” mövzusunda beynəlxalq rəsm sərgisində İsmayıllı rayonu lahıc kənd orta məktəbinin 13 yaşlı şagirdi Ayşən Babazadə mükafata layiq görülmüş və Türkiyənin Trabzon şəhərində keçirilən mükafatlandırma mərasimində rəsm müəllimi ilə birlikdə iştiarkı təmin edilmişdir.

Bakı şəhəri 30 nömrəli Uşaq Yaradıcılıq Mərkəzinin 13 nəfərdən ibarət “Nahidə” rəqs qrupu “23 Nisan Çocuq Festivalı”na iştirak temək məqsədilə 18-28 aprel 2011-ci il tarixlərində Tükriyənin İstanbul şəhərinə, Ağstafa rayon Uşaq Yaradıcılıq Mərkəzinin “Ləman” rəqs qrupu 18-24 aprel 2011-ci il tarixlərində Türkiyənin Sakarya şəhərinə “Beynəlxalq Uşaq Xalq Açıq Rəqs Festivalı Həftəsi”nə, Bakı şəhəri 24 nömrəli Uşaq və Gənclər Yaradıcılıq Mərkəznin 27 nəfərdən ibarət “Sə`ma” rəqs qrupu 23 aprel 2011-ci il tarixdə Türkiyənin Bodrum şəhərində keçirilən Beynəlxlaq Foklor Rəqs Festivalına, Bakı şəhəri 25 nömrəli Uşaq və Gənclər Yaradıcılıq Mərkəzinin rəqs kollektivi 20-15 aprel 2011-cil tarixdə Türkiyənin İstanbul şəhərində “23 Nisan Çocuq Festivalı”na dəvət almış

Nazirliyin tabeliyində olan uşaq yaradıcıq mərkəzlərinin kolletivləri bir sıra

Azərbaycan Respublikasının Təhsil və Xarici İşlər nazirliklərinin 08 iyun 2011-ci il tarixli, 1036 nömrəli birgə qərarı ilə Azərbaycanda akkreditə olunmuş xarici ölkələrin diplomatik nümayəndəliklərinin və beynəlxalq təşkilatların nümayəndəliklərinin əməkdaşlarının uşaqları arasında “Azərbaycan haqqında nə bilirəm” mövzusunda II Respublika müsabiqəsi keçirilir. Müsabiqənin 2012-ci ildə keçirilməsi nəzərdə tutulur.

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatı ilə birgə ümumtəhsil məktəblərinin şagirdləri arasında 10 dekabr – Beynəlxalq İnsan Hüquqları Günü, Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının 20-ci ildönümü, Vətəndaş və siyasi hüquqlar, İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Plakatların 45 illiyi münasibətilə "Mən və hüquqlarım" mövzusunda uşaq rəsmlərinin müsabiqəsi keçirilmişdir.

Müsabiqənin qalibləri 10 dekabr 2011-ci il tarixdə Ombudsman aparatında yekun tədbirdə mükafatlandırılmışlar.

BMT-nin təşəbbüsü ilə hər ilin 21 sentyabr tarixinin Beynəlxalq Sülh Günü kimi qeyd edildiyini nəzərə alaraq, Milli Fəaliyyət Planının 38 və 39-cu bəndlərində göstərilmiş müddəalara uyğun olaraq İnsan Hüquqları üzrə Müvəkkilinin təşəbbüsü ilə təhsil müəssisələrində hüquqi maarifləndirmə, insan hüquqları və sülh mədəniyyətini təbliğ edən tədbirlər keçirilmişdir. Bütün təhsil müəssisələrində dərslərdən biri Təhsil Nazirliyinin müvafiq təlimati məktubuna əsasən sülh mövzusuna həsr edilmişdir.

"21 sentyabr – Beynəlxalq Sülh Günü" ilə bağlı nazirliyin müvafiq təlimati məktubuna əsasən bütün təhsil müəssisələrində konfrans, seminar, açıq dərs, disput, sinif saatları, mühazirələr keçirilmişdir.

Təhsil Nazirliyi və "ELS" Müstəqil Araşdırmalar Mərkəzi ilə birgə Azərbaycanda "Uşaq internet Portalının yaradılması" layihəsini həyata keçirir. Nazirliyin 46-20-7486/16 nömrəli 20 sentyabr 2011-ci il tarixli təlimati məktubu ilə Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərən məktəbdənkənar müəssisələr haqqında məlumatlar toplanmış və həmin mərkəzə təqdim edilmişdir. Portalın yaradılmasında məqsəd uşaq və yeniyetmələrin mədəni inkişafı üçün yaradılmış imkanları müasir elektron texnologiyalar vasitəsi ilə dünya ictimaiyyətinə tanıtmaqdır.

Təhsil və Gənclər və İdman nazirliklərinin razılığı və Fövqəladə Hallar Nazirliyinin 18 noyabr 2011-ci il tarixli, 099 nömrəli əmri ilə Bakı şəhərinin məktəbləri arasında "Gənc Xilasedici və Yanğınsöndürən" yarışı keçirilmişdir. Final mərhələsi 20-21 dekabr 2011-ci il tarixdə Fövqəladə Hallar Nazirliyinin Akademiyasında keçirilmişdir.

Nazirliyin 15 noyabr 2011-ci il tarixli, 1793 nömrəli əmri ilə YUNESKO-nun Moskva bürosunun müraciəti əsasında 2004-2011-ci illər ərzində Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən QİÇS epidemiyasının profilaktikası istiqamətində təhsil sahəsində görülmüş işlərin və əldə olunmuş irəliləyişlərin qiymətləndirilməsi məqsədilə İşçi Qrupu yaradılmış və İşçi qrupu tərəfindən hazırlanmış 43 səhifəlik məlumat müvafiq olaraq YUNESKO-nun Moskva Bürosuna göndərilmişdir. Hal-hazırda müvafiq sorğu 2004-cü ilədək olan dövr üçün hazırlanır.

Azərbaycan Respublikası təhsil nazirinin 24 oktyabr 2011-ci il tarixli 1696 və 1698 nömrəli əmrlərinə əsasən Ümummilli lider Heydər Əliyevin anadan olmasının 89-cu ildönümü münasibəti ilə ilk peşə-ixtisas və orta ixtisas təhsili müəssisələrinin şagird və tələbələri arasında ifa üzrə Respublika müsabiqələrinə başlanılmışdır.

Azərbaycan Respublikası prezdentinin 15 sentyabr 2008-ci il tarixli, 3043 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı İnkişaf Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə Tədbirlər Planının (2008-2010-cu illər) monitorinq bölməsinin 5.2.7.1-ci bəndi ilə ən azı beş ildən bir, yəni 2011-ci ildə Demoqrafiya və Sağlamlıq sorğusunun keçirilməsi məqsədilə Səhiyyə Nazirliyinin 08.09.2010-cu i tarixli, 70 nömrəli əmri ilə yaradılmı. İşçi Qupuna şöbənin aparıcı məsləhətçisi Maral Salmanova daxil edilmişdir. İşçi Qrupu tərəfindən hazırlanmış Tədbirlər Planının monitorinq bölməsinin müvafiq bəndinə uyğun olaraq tütündən istifadənin tədqiqatı məqsədilə 2011-ci ildə 13-15 yaşlı məktəblilər arasında məqsədilə Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzinə 75 səhifəlik material təqdim edilmişdir.

Nazirliyin internet səhifəsinə müntəzəm olaraq məlumatlar yerləşdirilmişdir. Şöbə tərəfindən görülmüş işlər davamlı olaraq KİV-lərdə ictimaiyyətə çatdırılmışdır.

2011-ci ilin Azərbaycan Respublikasının Prezidenti tərəfindən "Turizm ili" və BMT tərəfindən beynəlxalq "Meşə ili" elan edilməsi ilə əlaqədar olaraq gənc nəslin ekoloji maarifləndirilməsi və tərbiyəsi işini təkmilləşdirmək məqsədilə Azərbaycan Respublikası Təhsil

Nazirliyi tərəfindən bir sıra işlər görülmüşdür. Ekoloji təbliğat və maarifləndirmə tədbirlərinin gücləndirilməsi, tədris müəssisələrində ekoloji təhsilə daha geniş yer ayrılması və bu sahə üzrə kadrların hazırlanması məqsədilə uşaq, yeniyetmə və gənclərin iştirakı ilə forum, konfranslar, seminarlar, dəyirmi masalar, breyn-rinqlər, baxış-müsabiqələri, yaradıcılıq sərgiləri, viktorinalar və s. kütləvi tədbirlər təşkil edilmişdir.

2011 ildə RETTM tərəfindən Bakı şəhəri 19, 53, 55, 58, 64, 86, 194, 254, 294, 269 və digər məktəblərdə "Bioloji müxtəliflik", "İnsan və ətraf mühit", "Ekoloji mədəniyyət", "Təbii sərvətlər" profilləri üzrə şagirdlərin maraq və həvəsini nəzərə alaraq 2640 şagirdi əhatə edən 50 adda 176 dərnək təşkil edilmişdir. Dərnək məşğələlərində interaktiv təlim metodlarını tətbiq etməklə məktəblilərin ekoloji biliklərini artırmaq, ekoloji vəziyyətin yaxşılaşdırılmasında fəallığını gücləndirmək, onların ətraf mühitin qorunması sahəsində fəal həyat mövqeyinə, bacarıq və ekoloji mədəniyyətə yiyələnməsinə şərait yaradılmışdır.

Nazirliyin müvafiq tapşırığına uyğun RETTM-in əməkdaşları tərəfindən "Ekoloji turizm", "İqlim dəyişmələri", "İqtisadiyyat və ətraf mühit", "Məktəblilərin yaradıcılıq potensialının inkişafında ekoloji tədqiqatların rolu", "Sinifdənxaric tədbirlərin məktəblilərin ekoloji biliklərini artırılmasında rolu", "Məktəb və məktəbdənkənar müəssisələrdə nadir ağac və kolların artırılması üsulları", "Xəzərin bioloji müxtəlifliyi", "Məktəblilərlə ekoloji ekskursiyaların təşkili", "Məktəbəqədər tərbiyə müəssisələrində uşaqlara ekoloji biliklərin öyrədilməsi" və s. mövzularda ekoloji dərnək proqramları, metodiki tövsiyələr, metodiki-tədris vəsaitləri hazırlanmışdır.

Ümumtəhsil məktəblərinin, ekoloji tərbiyə və təcrübəçilik mərkəzlərinin nəzdində meşəçilik üzrə keçirilən xüsusi məşğələlərdə şagirdlərin meşənin flora və faunası, təbii sərvətlərinin davamlı istifadəsi barədə məktəblilərin bilikləri artırmaq, ətraf mühitə düzgün münasibəti formalaşdırmaq və bu sahədə əməli fəaliyyəti istiqamətləndirmək məqsədi ilə təlim-tərbiyə işləri həyata keçirilmişdir.

2011-ci ilin Beynəlxalq "Meşə ili" və "Turizm ili" elan edilməsi ilə əlaqədar olaraq Azərbaycan Respublikası Təhsil Nazirliyi, Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə əməkdaşlığı ilə "Gənc Meşəçilər Məktəbi" metodik vəsaiti Təhsil Nazirliyinin 541 N-li 07.04.2011-ci il tarixli əmri ilə təsdiq edilərək Dünya Bankı, IUCN, WWF maliyyə dəstəyi ilə nəşr edilmişdir.

2011-ci ildə ekoloji turizmin təbliği və ekoloji maarifləndirməni genişləndirmək məqsədilə RETTM-in təşəbbüsü və ARDNŞ Ekologiya İdarəsinin dəstəyi ilə xüsusi olaraq ayrılmış avtobuslar vasitəsi ilə Bakı şəhəri orta məktəblərində təşkil edilmiş dərnəklərin üzvləri üçün AMEA Mərkəzi Nəbatat Bağına, Mərdəkan Dendrarisinə, Zooloji Muzeyə, Zooparka, Milli Parka, Yanar dağa, Atəşgaha və s. yerlərə ekskursiyalar təşkil edilmişdir.

Məktəblilərin ətraf mühit və biomüxtəliflik barədə ekoloji biliklərini artırmaq məqsədilə Almaniya Texniki Əməkdaşlıq Cəmiyyəti Biomüxtəlifliyin Davamlı İdarə Olunması Proqramının dəstəyi ilə ekoloji dərnəklərin üzvləri üçün xüsusi avtobuslarda Şirvan, Altıağac və Şahdağ Milli Parklarına ekoloji səyahətlər təşkil edilmiş, Milli Parkların ərazisində bioloji müxtəlifliyin, meşələrin müasir vəziyyətlərinin öyrənilməsi məqsədilə məktəblilərin iştirakı ilə ekoloji tədqiqatlar aparılmlşdır.

2011-cu ilin mart ayında ənənəvi olaraq keçirilən "Yaşıl Azərbaycan" devizi altında məktəblilərin respublika yaşıllaşdırma aylığında Bakı, Naxçıvan, Sumqayıt, Gəncə, Şirvan, Şəki şəhərlərinin, İsmayıllı, Cəlilabad, Quba, Xaçmaz, Zaqatala və digər rayonların gənc təbiətsevərləri fəallıq göstərmişlər. Məktəblilər məktəbyanı sahələrdə, yol kənarlarında, yaşayış yerlərində minlərlə ağac və kol bitkisi əkmiş, yeni meşə zolaqlarının salınmasında, nadir bitkilərin toxumla artırılmasında, tükəndikləri ərazilərdə bərpa edilməsində, təmizlik, abadlıq və yaşıllaşdırma işlərində fəal iştirak etmişlər.

2011-cu ilin fevral-mart aylarında orta məktəb şagirdləri və dərnək üzvlərinin iştirakı ilə "Su -həyatdır" devizi altında məktəblilərin respublika içməli suya qənaət aylığı keçirilmişdir. Ölkənin müxtəlif regionlarında alim və mütəxəssislərin iştirakı ilə orta məktəblərdə, ekoloji

tərbiyə və təcrübəçilik mərkəzlərində "22 mart-Ümumdünya su günü"nə həsr olunmuş viktorinalar, dəyirmi masalar, ekoloji aksiyalar, seminarlar və d. tədbirlər təşkil edilmişdir. Məktəblilər yerli ərazilərdə içməli su mənbələrinin ətrafında təmizlik və abadlıq işlərinin aparılmasında, su kəmərlərində nasazlıqların aşkar edilməsində, əhali arasında icməli suyun qənaətlə istifadəsi barədə təbliğat işlərində yaxından iştirak etmişlər.

Azərbaycanda ekoloji təhsilin banisi akademik Həsən Əliyevin xatirəsinə həsr olunmuş "Təbiəti qorumaq-həyatı qorumaq deməkdir" devizi altında Bakı şəhəri məktəblərində "Ətraf mühit və insan sağlamlığı", "Biomüxtəlifliyi qoruyaq", "Azərbaycanin təbii sərvətləri", "Planetimiz-bizim gələcəyimizdir", "Həyəcan təbili", "Bizim yaşıl sərvətimiz", "Xəzər sərvətimizdir", "Enerjiyə qənaət" və s. mövzularda dəyirmi masalar, ekoloji gecələr, məktəb konfransları, müsabiqələr, sərgilər və digər ekoloji tədbirlər keçirilmişdir. Məktəblilər "22 aprel-Yer günü" ilə əlaqədar Azərbaycan Dövlət Neft Şirkəti tərəfindən Qala kəndi yaxınlığında yaradılmış "Eko-park"da ağacəkmə tədbirlərində iştirak etmiş, 200-dən artıq ağac əkilmişdir.

19 aprel 2011-ci il tarixdə Respublika Ekoloji Tərbiyə və Təcrübəçilik Mərkəzində Qeyri-Hökumət Təşkilatlarının, metodistlərin, Bakı şəhəri orta məktəb müəllimlərinin, dərnək rəhbərlərinin və şagirdlərin iştirakı ilə "2011-ci il - Beynəlxalq Meşə ilidir" mövzusunda dəyirmi masa keçirilmişdir. Tədbirdə Beynəlxalq Skautlar Federasiyasının və Azərbaycan Skautlar Assosiasiyasının üzvləri, Xəzər Universiteti nəzdində «Dünya» məktəbinin, Bakı şəhəri 284, 19, 254, 99, 58 saylı məktəblərin müəllimləri, Azərbaycan Heyvanları Mühafizə Təşkilatının nümayəndələri iştirak etmişlər. Norveçli qonaqlar Beynəlxalq Skautlar Federasiyasının fəaliyyəti barədə çıxış etmişlər. Tədbirin sonunda «Meşənin nağılı» adlı səhnəcik nümayiş etdirilmişdir.

30 aprel 2011-ci il tarixdə Uşaq Dünyası Rəsm Qalereyasında "Ətraf mühiti qoruyaq" mövzusunda məktəblilərin Respublika müsabiqəsi keçirilmişdir. Rəsm nominasiyası üzrə yüzlərlə məktəblinin rəsm əsərlərinə baxış keçirilmişdir. Müsabiqənin Respublika mərhələsinə 52 rayon və şəhərdən təqdim olunmuş 360-a qədər yaradıcılıq işində məktəblilər ətraf mühitin ekoloji problemlərini, təbii sərvətlərə və canlılara qayğıkeş münasibətin zəruriliyini sulu boyalar vasitəsilə məharətlə əks etdirmişlər. Müsabiqənin respublika mərhələsinin qaliblərinə Təhsil Nazirliyinin diplomları və qiymətli hədiyyələr təqdim olunmuşdur.

2011-ci ilin may ayında Şamaxı, Quba və Lənkəran rayonlarında meşə ərazisində yerləşən kənd orta məktəblərinin biologiya müəllimlərinin iştirakı ilə "Meşələrin qorunmasında məktəblilərin ekoloji maarifləndirilməsinin əhəmiyyəti" mövzusunda seminarlar keçirmişdir. Seminarlarda rayon ETTM-lərinin əməkdaşları, kənd məktəblərinin biologiya müəllimləri müzakirələrdə fəal iştirak etmişlər. Seminarda iştirak edən Ekologiya və Təbii Şərvətlər Nazirliyinin Şamaxı, Quba və Lənkəran Rayon Meşələrin Bərpası və Mühafizəsi Müəssisələrinin əməkdaşları "Gənc meşəçilər" dəstələrinin tədqiqatçılıq fəaliyyəti üçün meşəbəyilərin köməyi ilə xüsusi meşə sahələrinin və müəssisənin tingliyindən yerli ağac növlərinin ayrılacağını bildirmişlər. Seminar iştirakçılarına "Gənc meşəçilər məktəbi" metodik vəsaiti və meşə ilinə həsr olunmuş təqvimlər paylanmışdır.

17 may 2011-ci tarixdə Respublika Ekoloji Tərbiyə və Təcrübəçilik Mərkəzində "Gənc meşəçilər məktəbi - meşələrin qorunmasında ekoloji maarifləndirmənin rolu" mövzusunda keçirilən seminarda Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşları Ə.Məlikov, N.Mahmudov, Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin şöbə müdiri F.Əhmədov, Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin Turizm şöbəsinin rəis müavını M.Qəhrəmanov, Təhsil Nazirliyi Respublika Ekoloji Tərbiyə və Təcrübəçilik Mərkəzinin direktoru Ə.Şükürov, Bakı Dövlət Universitetinin kafedra müdiri, professor, c.e.d. Ş.Göyçaylı, professor, c.e.d. T.Xəlilov, dosent R.Ağabəyova, Azərbaycan Heyvanları Mühafizə Cəmiyyətinin sədri A.Qarayev, Korolenko adına Mərkəzi Şəhər Gənclər Kitabxanasının şöbə müdirləri, Bakı şəhərinin orta məktəb müəllimləri, QHT və KİV nümayəndələri, RETTM-in əməkdaşları iştirak etmişdir. Seminarda "Gənc meşəçilər" dəstələrinin fəaliyyəti haqqında geniş məlumat verilmişdir. Seminar iştirakçıları ekoloji biliklərin

əhali arasında yayılmasında məktəblilərin təbliğatçılıq fəaliyyətinin, qanun pozuntularının aradan qaldırılmasında, milli parkların ərazisində ekoturizm cığırlarının yaradılmasında məktəblilərin iştirakının vacıbliyini qeyd etmişlər.

2011-ci ilin may ayında Azərbaycan Respublikası Təhsil Nazirliyinin, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Almaniya Texniki Əməkdaşlıq Cəmiyyəti ilə birgə "22 may-Biomüxtəliflik günü" mövzusunda məktəblilərin Respublika ekoloji tədbiri keçirilmişdir. 17-19 may 2011-ci il tarixlərində mütəxəssislərin iştirakı ilə Azərbaycanın 20 rayon, şəhər ekoloji tərbiyə və tərcübəçilik mərkəzlərində biologiya müəllimlərinin iştirakı ilə təlimatı seminarlar keçirilmişdir. Baki, Naxcıvan, Sumqayıt, Gəncə şəhərləri, Qax, Şamaxı, Ordubad, Şəmkir, Lənkəran, Füzuli, Bərdə, Quba, Qusar, Qazax, Tovuz, Zaqatala, Göyçay. Masallı, İsmayıllı rayonlarının ekoloji tərbiyə və təcrübəçilik mərkəzlərində keçirilmiş seminarlarda GİZ-in dəstəyi ilə nəşr edilmiş biomüxtəlifliyə aid təyinedici kitabçalar, cədvəllər, ekoloji oyunların keçirilməsi üçün kartlar müəllimlərə təqdim olunmuşdur.

22 may 2011-ci il tarixdə respublikada 3000-ə qədər şagird və dərnək üzvü ekoloji ekskursiyada iştirak edərək məktəbyanı ərazilərdə bioloji müxtəlifliyi tədqiq etmişlər.

22 iyun 2011-ci il tarixdə Respublika ETTM-də "Sağlam həyata doğru" Ekoloji İctimai Birliyinin birgə ilə "Avtomobil tullantıları haqqında bilik və məlumatların artırılması" mövzusunda seminar keçirilmişdir. Seminarda çıxış edənlər müasir dövrdə iri sənaye şəhərlərində avtomobillərin sayının artması nəticəsində ətraf mühitə və insan sağlamlığına vurulan zərər, neqativ təsirin azaldılması yolları, alternativ nəqliyyat növlərinin istifadəsi barədə məlumat vermişlər. Yaradılmış *www.green-car.az* saytı seminar iştirakçılarının nəzərinə çatdırılmışdır.

2011-ci ilin Azərbaycan Respublikası Prezidenti tərəfindən "Turizm ili" və BMT tərəfindən beynəlxalq "Meşə ili" elan edilməsi ilə əlaqədar olaraq Azərbaycan Respublikası Təhsil Nazirliyinin 1859 nömrəli, 25.11.2011 ci il tarixli əmrinə uyğun olaraq meşələrin qorunması və davamlı istifadəsi sahəsində məktəblilərin ekoloji maarifləndirilməsini genişləndirmək məqsədilə "Meşələri qoruyaq" devizi altında dekabr-yanvar aylarında gənc meşəçilərin respublika müsabiqəsi keçirilir. Müsabiqənin əsas məqsədi məktəblilərin meşəçilik sahəsində biliklərini artırmaq, onlarda ekoloji dünyagörüşünün, ətraf mühitə məsuliyyətli, qayğıkeş və şüurlu münasibətin, meşələrin qorunması, bərpası, davamlı istifadəsi sahəsində xüsusi bacarıq və vərdişlərin formalaşdırılmasından ibarətdir. Orta məktəblərin V-XI sinif şagirdlərinin, dərnək üzvlərinin, "gənc meşəçilər" dəstələrinin üzvlərinin iştirakı ilə "Məktəb meşəçiliyi", "Meşənin bioloji müxtəlifliyi", "Ekoloji turizm", "Ekoloji təhsilin forma və üsulları" bölmələri üzrə meşənin inkişaf qanunauyğunluqları, antropogen təsirin qiymətləndirilməsi, meşənin qırılmasının qarşısının alınması, yeni meşə zolaqlarının salınması, meşə ehtiyatlarının davamlı istifadəsi və bərpa olunması üsulları, "gənc meşəçilər" dəstələri ilə ekoloji tədqiqatların aparılmasına həsr olunmuş referat işləri və ekoloji layihələrin təqdimatı nəzərdə tutulur.

"İnsan Alverinə Qarşı Mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu və 11-ci maddələrində, habelə "Azərbaycan Respublikasının İnsan Alverinə Qarşı Mübarizə üzrə Milli Fəaliyyət Planı"nın (2009-2011-ci illər) 11-ci bəndinə əsasən dövlət orqanları tərəfindən əhali arasında maarifləndirmə və təbliğat işinin təşkili edilməsi məqsədilə Daxili İşlər Nazirliyinin müvafiq idarəsilə birlikdə Təhsil Nazirliyinə tabe bütün orta ixtisas müəssisələrində geniş toplantılar keçirilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 28 iyun 2007-ci il tarixli 2271 nömrəli Sərəncamı ilə təsdiq olunmuş "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi və narkomanlığın yayılması ilə mübarizə üzrə Proqramı"nın (2007-2012-ci illər) yerinə yetirilməsi ilə əlaqədar Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının İşçi qrupu ilə birlikdə respublikanın müxtəlif rayonlarında təhsil müəssisələrində maarifləndirmə tədbirləri həyata keçirilmişdir.

Təhsil Problemləri İnstitutu ilə birgə “Uşaq əməyinin istismarına qarşı yönəlmiş Fəaliyyət Planı” hazırlanmış və icrasına başlanmışdır.